**“BİRKART BANK OLMAYAN KREDİT TƏŞKİLATI”**
**MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

**Hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 20,000 (iyirmi min) ədəd faizli, təmin edilməmiş sənədsiz, adlı istiqrazların**

# EMİSSİYA PROSPEKTİ

**2025**

**M Ü N D Ə R İ C A T**

BƏYANAT ..... 3
XÜLASƏ ..... 4
1. Xəbərdarlıqlar ..... 4
2. Emitent haqqında məlumat ..... 4
3. Qiymətli kağızlar haqqında məlumat ..... 7
4. Risk faktorları ..... 9
5. Təklif ..... 10
İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT ..... 12
6. Emitentin auditorları barədə məlumat ..... 12
7. Seçilmiş maliyyə məlumatı ..... 13
8. Emitent barədə məlumat ..... 13
9. Emitentin biznesinin icmalı ..... 14
10. Digər təşkilatlarda iştirak ..... 15
11. Tendensiyalar barədə məlumat ..... 15
12. Gəlir proqnozu ..... 16
13. Emitentin idarəetmə və nəzarət orqanları ..... 16
14. İdarə Heyətinin işgüzar praktikası: ..... 18
15. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar: ..... 18
16. Emitentin maliyyə məlumatları ..... 19
17. Emitent haqqında əlavə məlumatlar ..... 26
İSTİQRAZLAR BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT ..... 26
18. Əsas məlumat ..... 26
19. İstiqrazlar barədə məlumat ..... 28
20. Təklifin şərtləri ..... 30
21. Ticarətə buraxılma və onun tənzimlənməsi ..... 34
22. Kredit reytinqləri ..... 34

## BƏYANAT

## EMİSSİYA PROSPEKTİNİN TƏRTİB EDİLMƏSİNDƏ İŞTİRAK EDƏN ŞƏXSLƏR VƏ BAZA EMİSSİYA PROSPEKTİNDƏ TƏQDİM EDİLMİŞ MƏLUMATLARA DAİR BƏYANAT

Biz, aşağıda imza edənlər,

1.1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27.01.2016-cı il tarixli, 05 saylı Qərarı ilə təsdiq edilmiş "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" ilə tanış olduğumuzu təsdiq edirik.

1.2. "Birkart BOKT" MMC-nin hər birinin nominal dəyəri 100 (bir yüz) manat olan 20,000 (iyirmi min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlarının Emissiya Prospektinə daxil edilmiş məlumatların həqiqi faktlar əsasında olduğu, heç bir faktın gizlədilmədiyini və bunun üçün bütün lazımi tədbirlərin görüldüyü barədə təminat veririk və məsuliyyəti öz üzərimizə götürürük.

**"BirKart BOKT" MMC-nin**
**Direktoru**
**Tural Məmmədli**

**Tarix: 19.06.2025**

**"BirKart BOKT" MMC-nin**
**Baş Mühasib**
**Zəka Həbibov**

**Tarix: 19.06.2025**

# XÜLASƏ

**1. Xəbərdarlıqlar**

**1.1.** Aşağıdakı məzmunda xəbərdarlıq:

1.1.1. Bu sənəd emissiya prospektinin giriş hissəsidir;

1.1.2. İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir;

1.1.3. Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya qiymətli kağızlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyəti daşıyırlar.

**2. Emitent haqqında məlumat**

**2.1 Emitentin tam adı**: "Birkart BOKT" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra Emitent)

**2.2 Emitentin dövlət qeydiyyat nömrəsi**: VÖEN 1404208811

**2.3 Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər prospekti 153, Port Baku Tower 2, Məhdud Məsuliyyətli Cəmiyyəti. Emitent 03 may 2018-ci il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnamə ilə "Birkart Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli Cəmiyyəti adı ilə qeydiyyata alınmışdır. Emitent Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (hazırda Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən müddətsiz olaraq verilmiş BKT-31 nömrəli lisenziya əsasında fəaliyyət göstərir.

**2.4 Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən ən vacib son tendensiyaların təsviri:**

Emitent əsasən istehlak kredit bazarında fəaliyyət göstərir və daim inkişaf edən rəqəmsal transformasiya dünyasında Emitent aşağıdakı strateji məqsədləri hədəfləmişdir:

- Pərakəndə kredit məhsulları və xidmətləri bazarında mühüm paya sahib olmaq;
- Kredit məhsulları və xidmətləri üzrə müştəri yönümlü texnoloji həllər təqdim etmək;
- Bir ekosistemi daxilində texnologiyaların inteqrasiyası, kredit portfelinin səmərəli idarə edilməsi, avtomatlaşdırılmış sənədləşmə proseslərin və risklərin qiymətləndirilməsi üzrə proseslərin formalaşdırılması və təkmilləşdirilməsi.

Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra ARMB) 2024-cü il üzrə Maliyyə sabitliyi hesabatına əsasən son 2 ildə BOKT-lərin aktivlərinin yüksək artımı onların maliyyə vasitəçiliyi funksiyasında rolunu daha da artırmışdır.

2024-cü ildə istehlak kreditləri BOKT-lərin portfelində əsas yeri tutmaqda davam etmişdir. İl ərzində kredit portfeli 35% (208 mln. manat) artaraq 808 mln. manat olmuşdur. İstehlak kreditləri üzrə illik artım 41% (150 mln. manat) olmuşdur və 2024-cü ilin sonuna BOKT-lərin kredit portfelinin 63.4%-i (512 mln. manat) istehlak kreditləri təşkil etmişdir.

Eyni zamanda, BOKT sektoru üzrə mənfəətlilik yüksəlmişdir. 2024-cü ildə BOKT-lər yüksək mənfəətlilik (xalis mənfəət – 157 mln. manat) əldə etmişdir ki, bu da 2023-cü ilin mənfəətindən təqribən 2 dəfə çoxdur. Sektorun ROA (aktivlər üzrə gəlirlilik) və ROE (kapital üzrə gəlirlilik) göstəriciləri müvafiq olaraq 15.8% və 34.4% təşkil etmişdir.

2021- 2024-cü illərdə ARMB bütün dövr ərzində 1 ABŞ dolları üçün 1,7000 AZN səviyyəsində sabit qalan Azərbaycan manatının sabitliyini qorumağa davam etmişdir. ARMB-nin 23 aprel 2025-ci il tarixli qərarı ilə uçot dərəcəsi 7.25% səviyyəsində dəyişməz saxlanılıb. Ümumilikdə, mövcud pul siyasəti inflyasiyanın hədəf daxilində saxlanılmasına və inflyasiya gözləntilərinin sabitləşməsinə yönəlib. Mövcud siyasət çərçivəsində baza ssenari üzrə 2025-ci və 2026-cı ildə illik inflyasiyanın hədəf daxilində (4±2%) olacağı proqnozu dəyişməz qalır. Belə ki, 2025-ci ilin aprel ayında yenilənmiş proqnozlara görə illik inflyasiyanın cari ildə 5.3%, 2026-cı ildə 4.3% ətrafında olacağı gözlənilir.

Ümumilikdə, Bank olmayan kredit təşkilatları sektorunda stabil böyümə tendensiyası hakimdir və mövcud makroiqtisadi gözləntilər çərçivəsində bu tendensiyanın davam etməsi gözlənilir. Birkart BOKT rəhbərliyi cari şəraitdə baş verən iqtisadi dəyişiklikləri izləməkdədir və Emitentin yaxın gələcəkdə fəaliyyətinin davamlılığı və inkişafını dəstəkləmək üçün lazım hesab etdiyi ehtiyat tədbirlərini görməkdədir.

**2.5 Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**

**“Competo” Məhdud Məsuliyyətli Cəmiyyəti -** Emitentin Competonun nizamnamə kapitalındakı iştirakı 72.805%-dir. Ünvan: Bakı, Neftçilər prospekti 153. VÖEN: 1404106781

**“Qırmızı Ürəklər” Xeyriyyə Fondu** - Emitentin “Qırmızı Ürəklər” Xeyriyyə Fondunun nizamnamə kapitalındakı iştirakı 100%-dir. Bakı şəh., Nəsimi r-nu, Neftçilər pr. 153 VÖEN: 1405402701

**2.6 Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Belə bir hal mövcud deyil.

**2.7 Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil.

**2.8 Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri**:

“Birkart BOKT” MMC-nin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa

çatan il üçün pul vəsaitlərinin hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditi aparılmışdır.

Əlavə edilmiş maliyyə hesabatları Birkart BOKT-un 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Azərbaycan Respublikasının Mühasibat Uçotu Haqqında Qanununa uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**2.9 Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri:**

Aşağıdakı cədvəldə 2022, 2023 və 2024-cü illər üzrə maliyyə məlumatları audit edilmiş maliyyə hesabatları əsasında təqdim edilmişdir.

| *Məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir* | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə** |
|---|---|---|---|
| Mənfəət/Zərər | (265,412.92) | (117,277.86) | (401,855.11) |
| Cəmi aktivlər | 30,707,354.89 | 62,321,308.37 | 87,163917.24 |
| Cəmi öhdəliklər | 2,495.00 | 1,746.34 | 610.32 |
| Cəmi Kapital | 30,704,859.89 | 62,319,562.03 | 87,163,306.92 |
| **Cəmi öhdəliklər və Kapital** | 30,707,354.89 | 62,321,308.37 | 87,163,917.24 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **9,569,982.85** | **(8,206,864.59)** | **(247,003.60)** |

**2.10 Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat:** Dəyişiklik olmamışdır.

**2.11 Emitentin ödəmə qabiliyyətinin qiymətləndirilməsinə təsir edən ən son hadisələr**:

“Birkart BOKT” MMC bank olmayan kredit təşkilarları sektorunda ən böyük nizamnamə kapitalına malik BOKT-dir. 30.01.2025 tarixli məlumata əsasən BOKT-nin 98,8 milyon manat nizamnamə kapitalına malikdir ki, bu məlumat Mərkəzi bankın eyni tarixli dövr üzrə açıqlanan statistik məlumatlarında 93 BOKT üzrə ümumi nizamnamə kapitalının 241.3 milyon manat vəsaitin 41 faizinə bərabərdir. Eyni zamanda, 2024-cü il üzrə audit edilmiş maliyyə hesabatına əsasən Pul vəsaitləri və onların ekvivalentləri 1,116,114.66 manat, cari öhdəlikləri isə 610,32 manatdır.

Belə ki, cari maliyyələşmə və likvidlik səviyyəsinin yaxın gələcəkdə də Birkart BOKT tərəfindən təmin olunması gözlənilir.

**2.12 Emitentin əsas fəaliyyətlərinin təsviri: “**Birkart BOKT” MMC Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər. Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik olan “Birkart BOKT” MMC, həmçinin aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

- Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);
- Lizinq;

- Veksellərin uçotu;
- Qarantiyanın verilməsi;
- Sığorta agenti xidmətlərinin göstərilməsi;
- Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

**2.13 Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti:** Cəmiyyətin nizamnamə kapitalı 100 % (yüz faiz) payla bir hüquqi şəxsə məxsusdur. Emitentin ali idarəetmə orqanı İştirakçıların Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Bununla bağlı Ümumi Yığıncağın iclasları növbəti və növbədənkənar ola bilər.

## 3. Qiymətli kağızlar haqqında məlumat

**3.1 İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı

**3.2 İstiqrazların valyutası**: Azərbaycan manatı (AZN)

**3.3 İstiqrazların təsbit olunan məhdudiyyətlər**: Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

**3.4 İstiqrazların təsbit olunmuş hüquqların təsviri**:

- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən bu Prospektin 3.5-ci bəndində müəyyən edilmiş qaydada illik 11.5 (on bir tam onda beş) faiz həcmində almaq;

Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

- Özünə məxsus istiqrazların vəziyyəti barədə məlumat almaq üçün Milli Depozit Mərkəzinə müraciət etmək;
- İstiqrazla təsdiqlənmiş hüquqları alqı-satqı müqaviləsi bağlamaq yolu ilə ötürmək;
- İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yükləmək. Belə yüklənmə qiymətli kağızlar üzrə depozitar sistemdə qeydiyyata alındığı andan qüvvəyə minir;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**3.5 İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 11.5 (on bir tam onda beş) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül dövründə (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 1 (bir) il müddətində, ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) hər 30 (otuz) təqvim gününün başa çatması tarixindən növbəti 3 (üç) iş günündən gec olmayaraq ödənilir.Sonuncu kupon ödənişi tədavül müddətinin sonunda istiqrazların nominal dəyəri ilə birlikdə ödəniləcəkdir. İstiqrazlar üzrə qeyd olunan ödənişlər istiqraz sahiblərinin bank hesablarına köçürüləcəkdir.

**3.6 Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** Təmin edilməmiş istiqrazlardır.

**3.7 İstiqrazların geri satın alınma şərtləri**: Tədavül müddəti ərzində istiqrazların geri satın alınması ilə bağlı Emitent tərəfindən öhdəlik nəzərdə tutulmur.

**3.8 Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazlar üzrə kupon gəlirliliyi illik 11.5 (on bir tam onda beş) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$\boldsymbol{TF = \frac{(\frac{N * D * G}{360})}{100}}$$

Burada:

TF – Bir istiqraz üzrə toplanmış faizlər

N – Bir istiqrazın nominal dəyəri: 100 (bir yüz) manat

D – İstiqrazların illik faiz dərəcəsi: 11.5 (on bir tam onda beş)

G – İstiqrazlar üzrə faiz ödənişi dövrünün müddəti

**3.9 İstiqrazların mülkiyyətçisinin təmsilçisinin adı**: Mövcud deyil.

**3.10 Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Təmin edilməmiş istiqrazlardır.

**3.11 İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**

İstiqrazların yerləşdirilməsi abunə yazılışı formasında kütləvi təklif üsulu ilə "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların Bakı Fond Birjasında ticarətə qəbul edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması, ticarətinin dayandırılması, delistinqi qaydalarını və onların emitentlərinin bu qaydalar üzrə öhdəliklərinin icrası üzrə məsələlər ""Bakı Fond Birjası" QSC-də qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinq" Qaydaları ilə müəyyən edilir. Qeyd olunan Qaydanın 3.3-cü bəndinə əsasən kütləvi yerləşdirmə üsulu ilə ticarət baş tutduqdan sonra qiymətli kağızlar müvafiq seqment üzrə listinqə alınır.

Bakı Fond Birjası yeni emissiya edilmiş istiqrazların ticarətə qəbul edilməsi, kütləvi təklif üsulu ilə yerləşdirilməsi, listinqə alınması, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir.

Bakı Fond Birjasının fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli Kağızlar Bazarı" haqqında Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının

digər normativ hüquqi normativ aktları və Bakı Fond Birjasının nizamnaməsi və daxili qaydaları ilə tənzimlənir.

## 4. Risk faktorları

**4.1 Təklif olunan qiymətli kağızlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- valyuta riski - valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski;
- faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- inflyasiya riski - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- likvidlik riski - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
- əməliyyat riski - daxili proseslər, sistem pozuntuları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- hesablaşma və kontragent riski - hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
- təbii - insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, zəlzələ, daşqın, tufan, qasırğa, ildırım və s. risklər)

**4.2 İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:**

- İqtisadi kiçilmə – İnflyasiya, faiz, valyuta riskləri kimi amillərdən yaranan iqtisadi qeyri-sabitlik ölkə iqtisadiyyatında kiçilməyə səbəb ola bilər. Bu zaman ölkədə alıcılıq qabiliyyəti aşağı düşə və bank məhsullarının satışı üzərində mənfi təsir yarada bilər.
- Təbii fəlakətlərin baş verməsi (fors-major hallar) – Təbii fəlakətlərin baş verməsi də öz növbəsində iqtisadi şok yaradaraq ölkədə alıcılıq qabiliyyətinin aşağı düşməsi, bankın əməliyyatlarına zərər verə biləcək sistem pozuntuları, kontragentlərin öz öhdəliklərini yerinə yetirə bilməməsi ilə nəticələnə bilər.
- Emitentin fəaliyyətinə birbaşa və dolayı yolla təsir edə bilən qərarlar – İnflyasiyanın tənzimlənməsi məqsədi ilə ARMB sərtləşdirilmiş monetar siyasəti alətlərindən istifadə edərək uçot faiz dərəcəsinin artırılması kimi likvidliyin kəskin azalmasına səbəb ola biləcək sərt monetar tədirlər həyata keçirdə bilər. Eyni zamanda, ARMB tərəfindən BOKT-lərin kapital, ehtiyatların yaradılması, öhdəliklərin kapitala nisbəti kimi tələblərin sərtləşdirilməsi ilə bağlı qaydalar qəbul edilməsi BOKT-un likvidliyinə mənfi təsir yarada bilər.

## 5. Təklif

**5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Bu istiqrazların buraxılışı mütəşəkkil kapital bazarından sərbəst vəsaitlərin cəlb edilməsi ilə Birkart BOKT-un aktivlərinin və pul vəsaitlərinin resurs bazasının diversifikasiyasının artırılması, eləcə də Azərbaycan Respublikasının qiymətli kağızlar bazarının inkişafına töhfə vermək məqsədi ilə həyata keçiriləcəkdir.

Emissiyadan əldə olunan vəsait BirKart BOKT-un strateji hədəflərinin reallaşdırılması, nüfuzunun və bazar payının artırılması, o cümlədən kredit portfelinin dinamik inkişafında istifadə ediləcəkdir.

**5.2. Təklifin şərtlərinin təsviri:**

5.2.1 **Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** İstiqrazların yerləşdirilməsi kütləvi təklif üsulu ilə “Bakı Fond Birjası” QSC-nin ticarət platforması üzərindən həyata keçiriləcəkdir. Emissiya ediləcək istiqrazlar maliyyə bazarlarına nəzarət orqanı (ARMB) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra abunə yazılışına 2 (iki) ay ərzində başlanılacaq və abunə yazılışı isə 30 (otuz) təqvim günü ərzində həyata keçiriləcəkdir. Abunə yazılışı başa çatdıqdan sonra istiqrazların yerləşdirilməsinə 5 (beş) iş günü ərzində başlanılacaq və istiqrazların yerləşdirilməsi müddəti başlandığı tarixdən etibarən 7 (yeddi) iş günündən çox olmamaq şərti ilə tamamlanacaqdır. Ümumilikdə, qiymətli kağızların yerləşdirilməsi qanunvericilikdə nəzərdə tutulmuş qaydalara əsasən tamamlanacaqdır. Abunə yazılışının başlanması və bitmə tarixləri, habelə istiqrazların yerləşdirilməsi tarixləri ictimaiyyətə BFB-nin (www.bfb.az) rəsmi saytları vasitəsilə açıqlanacaqdır.

5.2.2 **İstiqrazlara abunə yazılışının qaydası:** İstiqrazlara abunə yazılışı investorlar tərəfindən sifarişin Bakı Fond Birjasının üzvü olan investisiya şirkətlərinə təqdim edilməsi ilə həyata keçirilir. Abunə yazılışı üçün sifariş investor tərəfindən imzalanmalıdır. Hüquqi şəxslərin təqdim etdikləri sifariş onların səlahiyyətli şəxsi tərəfindən imzalanmalı və möhürlənməlidir. Sifariş təqdim edilərkən onun üzərində investisiya şirkətlərinin səlahiyyətli şəxsi tərəfindən sifarişin qəbul edildiyi tarix, vaxt, qeydiyyat nömrəsi, sifarişi qəbul edən şəxsin adı, soyadı qeyd edilir və uçota alınır. Abunə yazılışı sifarişləri uçota alınaraq, abunə yazılışı müddətində Anderrayter tərəfindən toplanır.

Bakı Fond Birjasında istiqrazların yerləşdirilməsindən əvvəl toplanmış abunə yazılışı sifarişləri “PAŞA Kapital İnvestisiya Şirkəti” QSC tərəfindən investorlar arasında bölüşdürülür. Toplanmış sifarişlərin (tələb) həcmi təklifdən az olarsa, hər bir investorun tələbini tam ödəməklə icra edilir. Toplanış sifarişlərin (tələblərin) həcmi təklifdən çox olarsa, təklif edilən istiqrazlarının sayının tələb olunan istiqrazların sayına olan nisbəti (əmsal) hesablanır. Hər bir investorun abunə yazılışı sifarişinin sayı bu əmsala vurularaq, alınan rəqəmin kəsr hissəsi aşağı yuvarlaqlaşdırılmaqla, rəqəmin tam hissəsi qədərində investora istiqraz bölüşdürüləcəkdir. Bundan sonra yarana biləcək yuvarlaqlaşdırma qalığı, investorların sifarişlərinin icraya qəbul edilmə tarixi və vaxtı (əvvəlinci sifarişdən sonrakına doğru) nəzərə alınmaqla, yaranmış yuvarlaqlaşdırma qalığı bitənə qədər istiqrazlar bir-bir ödənilməklə icra ediləcəkdir.

5.2.2 **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların yerləşdirilməsi nəticəsində istiqrazlar investorların depo hesabına köçürüləcəkdir. İstiqrazın dəyəri pulla ödənilir və bu pul vəsaiti emitentin açdığı müvəqqəti cari hesabda ("PAŞA Bank" Açıq Səhmdar Cəmiyyəti) saxlanılır. Müvəqqəti cari hesabda olan pul vəsaitləri "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinə uyğun olaraq istiqrazların ilk mülkiyyətçilərinin depo hesabına köçürüldüyü andan dərhal sonra emitentin bank hesabına köçürüləcəkdir.

5.2.3 **İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətin müəyyənləşdirmə metodunu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat:** İstiqrazların Abunə yazılışının qiyməti - Abunə yazılışı dövründə İnvestorlar tərəfindən sifarişlərin verilmə tarixindən və həcmindən asılı olmayaraq, istiqrazlar nominal qiyməti ilə yəni, 1 (bir) istiqraz 100 (bir yüz) manata təklif olunur.

**5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:** Emissiyada iştirak edən şəxslərin maraqlarının toqquşması halı mövcud deyildir.

5.3.1. **"Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti (BFB).** Emissiya prosesində iştirak edən BFB yeni emissiya ediləcək istiqrazların ticarətə qəbul edilməsi, listinqə daxil edilməsi, listinqdə saxlanılması, yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir.

Bakı Fond Birjasının "Kapital Bank" ASC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarətə buraxılmasında marağı kommersiya xarakterlidir. BFB qiymətli kağızların ticarətə qəbul edilməsi, yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızların listinqindən öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

5.3.2. **Milli Depozit Mərkəzi (MDM).** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

5.3.3. **"PAŞA Kapital İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti**

"PAŞA Kapital İnvestisiya Şirkəti" QSC 09.03.2016-cı il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş İSN/L-640/2016, 088806 saylı müddətsiz lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. "Birkart BOKT" MMC tərəfindən buraxılacaq istiqrazların anderraytinqi və yerləşdirilməsi "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətlərin göstərilməsinə görə emitentdən xidmət haqqı tutacaqdır. "BirKart BOKT" MMC-nin

istiqrazlarının anderraytinqi və yerləşdirilməsi prosesində “PAŞA Kapital İnvestisiya Şirkəti” QSC-nin marağı kommersiya xarakterlidir.

**5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – AR Vergi Məcəlləsi) 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-ci və 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur.

İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

**Xərclər:** İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

- Bakı Fond Birjası - əqdin həcmindən 0.02%
- Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
- İnvestisiya şirkətləri – investisiya şirkəti ilə investor arasında bağlanmış müqavilə əsasında;
- Bank köçürmə xərcləri – bankdan asılı olaraq dəyişir.

## İSTİQRAZLARIN EMİTENTİ BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT

**6. Emitentin auditorları barədə məlumat**

**6.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| İl | Auditorun adı | Auditorun ünvanı | Auditorun üzv olduğu təşkilat |
|---|---|---|---|
| **2022** | SR Audit | Bakı şəhəri, H.Əliyev | Azərbaycan Respublikası |

| | | | |
|---|---|---|---|
| | Solutions MMC | pr.115, Caspian Sport Hotel&Plaza, 13-cü mərtəbə 1307 saylı ofis | Auditorlar Palatası |
| **2023** | Əliyev Elvin Elçin oğlu | Z1073, Bakı şəhəri, Ş.Mehdiyev küçəsi 88 | Azərbaycan Respublikası Auditorlar Palatası |
| **2024** | Əliyev Elvin Elçin oğlu | Z1073, Bakı şəhəri, Ş.Mehdiyev küçəsi 88 | Azərbaycan Respublikası Auditorlar Palatası |

**6.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə, səbəbləri göstərilməklə, məlumat:** 2023-cü ildə şəffaflığın qorunması məqsədi ilə auditor dəyişdirilmişdir.

## 7. Seçilmiş maliyyə məlumatı

**7.1. Son üç maliyyə ili ərzində (hər maliyyə ili üzrə ayrı-ayrılıqda göstərməklə) seçilmiş maliyyə məlumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri:**
Aşağıdakı cədvəldə 2022, 2023 və 2024-cü illər üzrə maliyyə məlumatları audit edilmiş maliyyə hesabatları əsasında təqdim edilmişdir.

| *Məbləğlər min Azərbaycan manatı ilə təqdim edilir* | **31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə** | **31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə** |
|---|---|---|---|
| Mənfəət/Zərər | (265,412.92) | (117,277.86) | (401,855.11) |
| Cəmi aktivlər | 30,707,354.89 | 62,321,308.37 | 87,163917.24 |
| Cəmi öhdəliklər | 2,495.00 | 1,746.34 | 610.32 |
| Cəmi Kapital | 30,704,859.89 | 62,319,562.03 | 87,163,306.92 |
| **Cəmi öhdəliklər və Kapital** | 30,707,354.89 | 62,321,308.37 | 87,163,917.24 |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri** | **9,569,982.85** | **(8,206,864.59)** | **(247,003.60)** |

## 8. Emitent barədə məlumat

**8.1 Emitentin tam adı, təşkilati-hüquqi forması**: “Birkart BOKT” Məhdud Məsuliyyətli Cəmiyyəti

**8.2 Emitentin dövlət qeydiyyatının rekvizitləri**: Emitent 03 may 2018-ci il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnamə ilə “Birkart Bank Olmayan Kredit Təşkilatı” Məhdud Məsuliyyətli Cəmiyyəti adı ilə qeydiyyata alınmışdır. Emitent Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası (hazırda Azərbaycan Respublikasının Mərkəzi Bankı) tərəfindən müddətsiz olaraq verilmiş BKT-31 nömrəli lisenziya əsasında fəaliyyət göstərir. “Birkart BOKT” MMC: VÖEN 1404208811

**8.3 Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin qeydiyyat tarixi:** Mövcud deyil.

**8.4 Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**
Azərbaycan Respublikası, AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər prospekti 153,
Port Baku Tower 2
office@birkartbokt.az +994 (50) 988-44-22

**8.5 Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Qeyd olunan dövr ərzində yeni investisiya layihələri olmamışdır.

**8.6 İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəliklər və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** Mövcud deyil.

**8.7 Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat: "**Bakı Fond Birjası" Qapalı Səhmdar Cəmiyyəti. "Bakı Fond Birjası" QSC yeni emissiya edilmiş istiqrazların ticarətə qəbul edilməsi, listinqə daxil edilməsi, yerləşdirilməsi, həmçinin, təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir.

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli Kağızlar Bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili qaydaları ilə tənzimlənir.

## 9. Emitentin biznesinin icmalı

**9.1 Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri**: Emitent bank olmayan kredit təşkilatları sektorunda fəaliyyət göstərir. Emitent lisenziyası əsasında qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verilə bilər, habelə "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə qanunvericiliyə uyğun qaydada məşğul ola bilər. Bu cür fəaliyyət növlərinə borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq), lizinq, veksellərin uçotu, qarantiyanın verilməsi, sığorta agenti və (və ya) ödəniş agenti xidmətlərinin göstərilməsi, borc alanlara, o cümlədən birgə borcalan qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi daxildir.

**9.2 Təqdim olunmuş yeni məhsul və ya xidmətlər barədə məlumat, onların inkişaf statusu:** Təqdim olunmuş yeni məhsullar mövcud deyildir.

**9.3 Emitentin rəqabət apardığı əsas bazarların təsviri:**

**Bank olmayan kredit təşkilatları sektoru cari vəziyyəti:** Son 2 ildə BOKT-lərin aktivlərinin yüksək artımı onların maliyyə vasitəçiliyi funksiyasında rolunu daha da artırmışdır. Bütövlükdə maliyyə sistemində aktivlərinə görə BOKT-lərin bazar payı 1.6% təşkil etmişdir. 2024-cü il ərzində 4 BOKT-nin lisenziyası ləğv edilmiş, 3 BOKT-yə yeni lisenziya verilmişdir. 2024-cü il

ərzində BOKT-lərin kapitalı 45% (141 mln. manat) artaraq 456 mln. manat təşkil etmişdir. Kapitalın artımı həm kapital inyeksiyası, həm də BOKT sektorunun mənfəət generasiyası hesabına olmuşdur. Belə ki, il ərzində bölüşdürülməmiş mənfəət 2 dəfədən çox artaraq 231 mln. manat, nizamnamə kapitalı isə 18% (37 mln. manat) artaraq 241 mln. manat təşkil etmişdir.

**9.4 Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırması:** Mövcud deyil.

**10. Digər təşkilatlarda iştirak**

**10.1 Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri:**

**"Competo" Məhdud Məsuliyyətli Cəmiyyəti** - Emitentin Competonun nizamnamə kapitalındakı iştirakı 72.805%-dir. Ünvan: Bakı, Neftçilər prospekti 153. VÖEN: 1404106781

**"Qırmızı Ürəklər" Xeyriyyə Fondu** - Emitentin "Qırmızı Ürəklər" Xeyriyyə Fondunun nizamnamə kapitalındakı iştirakı 100%-dir. Bakı şəh., Nəsimi r-nu, Neftçilər pr. 153 VÖEN: 1405402701

**10.2 Emitentin qrupdakı digər müəssisələrdən asılı olduğu təqdirdə bu barədə məlumat.**

Belə bir hal mövcud deyil.

**11. Tendensiyalar barədə məlumat**

**11.1 Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin emissiya prospektində mənfi dəyişikliyin olub-olmaması barədə məlumat:** Mənfi dəyişiklik baş verməyib.

**11.2 Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, tələblər, öhdəliklər və ya hadisələr barədə məlumat:** 2024-cü ildə BOKT-lər yüksək mənfəətlilik (xalis mənfəət – 157 mln. manat) əldə etmişdir ki, bu da 2023-cü ilin mənfəətindən təqribən 2 dəfə çoxdur. Sektorun ROA və ROE göstəriciləri müvafiq olaraq 15.8% və 34.4% təşkil etmişdir.

2021- 2024-cü illərdə Azərbaycan Respublikasının Mərkəzi Bankı (bundan sonra - ARMB) bütün dövr ərzində 1 ABŞ dolları üçün 1,7000 AZN səviyyəsində sabit qalan Azərbaycan manatının sabitliyini qorumağa davam etmişdir. ARMB-nin 23 aprel 2025-ci il tarixli qərarı ilə uçot dərəcəsi 7.25% səviyyəsində dəyişməz saxlanılıb. Ümumilikdə, mövcud pul siyasəti inflyasiyanın hədəf daxilində saxlanılmasına və inflyasiya gözləntilərinin sabitləşməsinə yönəlib. Mövcud siyasət çərçivəsində baza ssenari üzrə 2025-ci və 2026-cı ildə illik inflyasiyanın hədəf daxilində (4±2%) olacağı proqnozu dəyişməz qalır. Belə ki, 2025-ci ilin aprel ayında yenilənmiş proqnozlara görə illik inflyasiyanın cari ildə 5.3%, 2026-cı ildə 4.3% ətrafında olacağı gözlənilir.

Ümumilikdə, Bank olmayan kredit təşkilatları sektorunda stabil böyümə tendensiyası hakimdir və mövcud makroiqtisadi gözləntilər çərçivəsində bu tendensiyanın davam etməsi gözlənilir. Birkart BOKT rəhbərliyi cari şəraitdə baş verən iqtisadi dəyişiklikləri izləməkdədir və Emitentin yaxın gələcəkdə fəaliyyətinin davamlılığı və inkişafını dəstəkləmək üçün lazım hesab etdiyi ehtiyat tədbirlərini görməkdədir.

**12. Gəlir proqnozu**

Mövcud deyil.

**13. Emitentin idarəetmə və nəzarət orqanları**

**13.1 Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:**

**13.1.1 adı, soyadı, atasının adı;**

**13.1.2 funksiyaları;**

**13.1.3 xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat.**

Emitentin ali idarəetmə orqanı İştirakçıların Ümumi Yığıncağıdır.

"Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti - 100 %

İştirakçıların Ümumi Yığıncağının müstəsna səlahiyyətlərinə aşağıdakılar daxildir:

- Emitentin Nizamnaməsini qəbul etmək, Nizamnaməyə əlavə və dəyişikliklər etmək;
- Emitentin illik maliyyə, hesabatlarını və balansını təsdiq etmək;
- Emitentin fəaliyyəti ilə bağlı əmlakın istifadəsi, mənfəət və zərərin bölüşdürülməsi;
- Kənar auditoru təyin etmək;
- daxili audit planlarını təsdiq etmək;
- Emitentin əsas faəliyyətini müəyyən etmək, plan və hesabatları təsdiq etmək;
- Emitentin Müşahidə Şurasının üzvlərini (sədr daxil olmaqla) təyin və azad etmək, Direktoru təyin və azad etmək;
- Emitentin filial və nümayəndəliklərini açmaq, fəaliyyətini dayandırmaq və xitam vermək, onların əsasnamələrini təsdiq etmək;
- Nizamnamə kapitalının artırılması və azaldılması barədə qərarlar qəbul etmək, nizamnamə kapitalına əlavə ödəmələrin məbləğini, formasını və qoyuluş prosedurunu müəyyən etmək;
- qanunvericilikdə nəzərdə tutulmuş hallarda aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan, habelə xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar qəbul etmək;
- Emitentin yenidən təşkili və ləğvi barəsində qərarlar qəbul etmək, ləğvetmə komissiyasını təyin etmək;
- Azərbaycan Respublikasının qanunvericiliyi və Emitentin Nizamnaməsi ilə İştirakçıların Ümumi Yığıncağının səlahiyyətinə aid edilmiş digər məsələləri həll etmək.

**Emitentin Müşahidə Şurası barədə məlumat:**

| № | Ad, soyad, ata adı | Vəzifə | Funksiya |
|---|---|---|---|
| 1. | Məhəmməd İbrahimov Əhməd oğlu | Müşahidə Şurasının sədri | Direktorun fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, İştirakçıların Ümumi Yığıncağının növbədənkənar iclaslarını çağırmaq və Audit Komitəsinin |

| | | | |
|---|---|---|---|
| | | | təqdimatına əsasən Daxili audiotiru təyin etmək və vəzifədən azad etmək |
| 2. | Nicat Rəsulov Mahir oğlu | Müşahidə Şurasının üzvü | Direktorun fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, İştirakçıların Ümumi Yığıncağının növbədənkar iclaslarını çağırmaq |
| 3. | Əli İbrahimov Qəməddin oğlu | Müşahidə Şurasının üzvü | Direktorun fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən, İştirakçıların Ümumi Yığıncağının növbədənkənar iclaslarını çağırmaq |

**Emitentin icra orqanı barədə məlumat**

| № | Ad, soyad, ata adı | Vəzifə | Funksiya |
|---|---|---|---|
| 1. | Tural Məmmədli Naib oğlu | Direktor | Emitentin cari fəaliyyətinə rəhbərlik edir və işlərinin aparılmasını həyata keçirir. Direktorun səlahiyyətlərinə aşağıdakılar daxildir:<br>- Emitentin cari fəaliyyətinə rəhbərlik və idarə olunmasını həyata keçirmək;<br>- İştirakçıların Ümumi Yığıncağının iclaslarını çağırmaq və qərarlarının vaxtında və qeyd-şərtsiz icra olunmasını təmin etmək;<br>- Emitentin adından vəkalətnaməsiz müqavilələr və sənədlər imzalamaq, Emitenti üçüncü şəxslər qarşısında təmsil etmək;<br>- Emitentin bank hesablarını açmaq və onlara dair sərəncam vermək;<br>- Emitentin əmək və daxili inztizam qaydalarını, əmək və kollektiv əmək müqavilələrinin hazırlanmasını təmin etmək;<br>- Emitentin işçiləri ilə əmək müqavilələrini bağlamaq və ləğv etmək, habelə işçilər barəsində həvəsləndirmə və intizam tədbirlərini tətbiq etmək;<br>- Emitentin təşkilati hüquqi strukturu, ştat cədvəli, daxili struktur bölmələrin əsasnamələrini və illik büdcəni hazırlayaraq Ümumi Yığıncağın müzakirəsinə təqdim etmək. |

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, iştirakçıların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

**14. İdarə Heyətinin işgüzar praktikası:**

**14.1 Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:**

Emitentin mükafatlandırma komitəsi mövcud deyildir. Audit komitəsinin üzvləri:

| | |
|---|---|
| Həsənov Sahib Musa oğlu | Audit Komitəsinin Sədri |
| Çələbi Allahverdi Rasim oğlu | Audit Komitəsinin üzvü |
| Abbasov Emin Aydın oğlu | Audit Komitəsinin üzvü |

**14.2 Emitentin, qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə hesabat:**

Emitentin idarəetmə forması Mülki Məcəllə və ona müvafiq hazırlanmış nizamnaməsi əsasında müəyyən edilir və tənzimlənir.

**15. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan səhmdarlar**:

**15.1 Emitentin nizamnamə kapitalında on faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus səhmlərin sayı və nizamnamə kapitalında olan faiz nisbəti;**

| Təsisçi | Hüquqi şəxsin olduğu yer, ünvanı və poçt indeksi göstərilməklə | Payların sayı | Emitentin Nizamnamə Kapitalında faiz nisbəti (faizlə) |
|---|---|---|---|
| "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti | Azərbaycan Respublikası, AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər pr. 153 | 1 | 100% |

**15.2 Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirləri təsviri:**

Emitentin ümumi fəaliyyətinə nəzarəti İştirakçıların Ümumi Yığıncağı və Müşahidə Şurası həyata keçirir. Emitent ilə aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydası Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1-ci maddəsində nəzərdə tutulmuşdur. Bundan əlavə Emitent aidiyyəti şəxslərə kreditlərin verilməsi zamanı buna dair prudensial tələblərə və normativlərə əməl edir.

Emitentin cari fəaliyyətinin idarə olunmasınas nəzarəti Müşahidə Şurası həyata keçirir. Müşahidə Şurası 3 (üç) nəfərdən az olmamaqla, tək sayda üzvlərdən ibarətdir. Şuranın üzvləri Emitentin İştirakçılarının Ümumi Yığıncağı tərəfindən 4 (dörd) il müddətinə seçilən fiziki şəxslərdir. Müşahidə Şurasının üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər. Müşahidə Şurası öz üzvləri sırasından Müşahidə Şurasının sədrini seçir.

**15.3 Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat**: Mövcud deyil.

## 16. Emitentin maliyyə məlumatları

### 16.1 Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:

“Birkart BOKT” MMC-nin son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmışdır.

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**

31 dekabr 2024-cü il tarixə

AZN

| Bölmə və maddələrin adı | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| ***Aktivlər*** | | | |
| ***Cari aktivlər*** | | | |
| Pul vəsaitləri və onların ekvivalrentləri | | 1 116 114,66 | 1 363 118,26 |
| Qısamüddətli debitor borcları | | | |
| Ehtiyatlar | | | |
| Gələcək dövrün xərcləri | | 0,00 | 0,00 |
| Digər aktivlər | | 0,00 | 120,30 |
| **Cəmi cari aktivlər** | | **1 116 114,66** | **1 363 238,56** |
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Torpaq, tikili və avadanlıq | | 1 383,20 | 309 899,43 |
| Qeyri maddi aktivlər | | 15 239,38 | 18 590,38 |
| İnvestisiyalar | | 86 031 180,00 | 60 629 580,00 |
| Uzunmüddətli debitor borcları | | | |
| Sair uzunmüddətli maliyyə aktivləri | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **86 047 802,58** | **60 958 069,81** |
| **Cəmi aktivlər** | | **87 163 917,24** | **62 321 308,37** |
| ***Öhdəliklər və kapital*** | | | |
| ***Cari öhdəliklər*** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| Vergi və sairə məcbiri ödənişlər üzrə öhdəliklər | | | |
| Qısamüddətli kreditor borcları | | | |
| Sair qısamüddətli öhdəliklər | | 610,32 | 1 746,34 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **610,32** | **1 746,34** |
| ***Uzunmüddətli öhdəliklər*** | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | |
| Uzunmüddətli kreditor borcları | | | |
| Sair uzunmüddətli öhdəliklər | | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **0,00** | **0,00** |
| ***Xalis aktivlər və kapital*** | | | |
| Nizamnamə kapitalı | | 88 335 580,00 | 63 089 980,00 |
| Əlavə kapital | | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | -1 172 273,08 | -770 417,97 |
| İstehlak fondu | | | |
| **Cəmi xalis aktivlər və kapital** | | **87 163 306,92** | **62 319 562,03** |
| **Cəmi öhdəliklər və kapital** | | **87 163 917,24** | **62 321 308,37** |

## MƏCMU MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT

31 dekabr 2024-cü il tarixə

AZN

| Bölmə və maddələrin adı | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| Gəlirlər | | | |
| Əsas əməliyyat gəlirləri | | 799,20 | 2 003,46 |
| Faiz gəlirləri, royalti və dividendlər | | | |
| Sair əməliyyat gəlirləri | | 85 064,22 | 66 068,55 |
| **Cəmi əməliyyat gəlirləri** | | **85 863,42** | **68 072,01** |
| Xərclər | | | |
| Kommersiya xərcləri | | 15 033,66 | 24 091,62 |
| İnzibati xərclər (ə/haqqı, amortizasiya, digər) | | 79 545,63 | 97 089,46 |
| əmək haqqı xərcləri və sosial ayırmalar | | 75 101,02 | 62 418,81 |
| köhnəlmə və amortizasiya xərcləri | | *4 444,61* | *34 670,65* |
| Maliyyə xərcləri | | 0,00 | 1 750,00 |
| Sair əməliyyat xərcləri (Ə/V-in dəyərdən düşməsi) | | 393 139,24 | 62 418,79 |
| **Cəmi əməliyyat xərcləri** | | **487 718,53** | **185 349,87** |
| Əməliyyat mənfəəti (zərərlər) | | -401 855,11 | -117 277,86 |
| Ümumi mənfəət (zərər) | | -401 855,11 | -117 277,86 |
| Mənfəət vergisi | | 0,00 | 0,00 |
| **Hesabat dövrünün sonuna maliyyə nəticələri** | | **-401 855,11** | **-117 277,86** |

## Kapitalda dəyişikliklər hesabatı

31 dekabr 2024-cü il tarixə

AZN

| | Nizamnamə kapitalı | Əlavə kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|
| *31 dekabr 2023 tarixə qalıq* | **63 089 980,00** | **0,00** | **-770 417,97** | **62 319 562,03** |
| Daxil olub | 73 950 000,00 | | -401 855,11 | **73 548 144,89** |
| İstifadə olunub | 48 704 400,00 | | 0,00 | **48 704 400,00** |
| *31 dekabr 2024 tarixə qalıq* | **88 335 580,00** | **0,00** | **-1 172 273,08** | **87 163 306,92** |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

31 dekabr 2024-cü il tarixə

| | 2024 | 2023 |
|---|---|---|
| | | AZN |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Müştərilərdən daxilolmalar | 799,20 | 925,41 |
| Sığorta satışından daxil olmalar | | |
| Alınmış avanslar (Kapitalbank) | | |
| Mal və xidmətlərə görə təchizatçılara ödənişlər | -1 520,51 | -3 240,22 |
| İşçilərə və onların adından pul vəsaitlərinin ödənişləri | -75 101,02 | -19 598,57 |
| Vergi və başqa fondlar üzrə pul vəsaitlərinin ödənilməsi | | -300,00 |
| Digər əməliyyat fəaliyyətilə bağlə pul vəsaitləri ödənişləri | | |
| Sair ödənişlər (Geri qaytarılmış avans) | 0,00 | 0,00 |
| **Əməliyyat fəaliyyətləri üzrə xalis pul vəsaitlərinin artımı (azalması** | **-75 822,33** | **-22 213,38** |
| ***İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti*** | | |
| Əsas vəsaitlərin və Q/maddi aktivlərin satılmasından daxil olanpul mə | 85 064,22 | 66 068,55 |
| Kapital qoyuluşu üçün mədaxil | 122 570 923,87 | 31 693 565,24 |
| Faiz daxilolmaları | | |
| Dividendlər və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmalrı | | |
| Kapital qoyuluşundan məxaric | -122 827 169,36 | -39 944 285,00 |
| **Cəmi investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | **-171 181,27** | **-8 184 651,21** |
| ***Maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti*** | | |
| Nizamnamə kapitalına və ehtiyat fondlarına ayırmalar üzrə daxilolmalar | | |
| Qiymətli kağızların buraxılışından daxilolmalar | | |
| Borc şəklində alınmış vəsaitlərə görə geri qaytarmalardan məxaric | | |
| **Cəmi maliyyələşdirmə fəaliyyətindən yaranan pul vəsaitlərinin hər** | **0,00** | **0,00** |
| **Cəmi mədaxil olunan pul** | **122 656 787,29** | **31 760 559,20** |
| **Cəmi məxaric olunan pul** | **-122 903 790,89** | **-39 967 423,79** |
| **Dövrün əvvəlinə olan qalıq** | **1 363 118,26** | **9 569 982,85** |
| **Dövrün sonuna qalıq** | **1 116 114,66** | **1 363 118,26** |
| **Pul vəsaitlərinin artması (azalması)** | **-247 003,60** | **-8 206 864,59** |

**16.2 Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları:** Emitent 2018-ci ildən fəaliyyət göstərir.

**16.3 Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı aşağıdakıları özündə əks etdirməlidir:** Emitent maliyyə hesabatlarını milli uçot standartlarına uyğun olaraq hazırlamışdır.

**16.4 Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** Emitentin konsolidasiya edilmiş maliyyə hesabatları mövcud deyil.

**16.5 Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarım illik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil**

**edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir**: Emitentin 2025-ci ilin rüblük (1-ci rüb) maliyyə hesabatı bu emissiya prospektinə əlavə olunur. Rüblük hesabat audit olunmur.

## MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT

**(min manatla)**

| | **Gəlir və xərclərin maddələri** | **İlin əvvəlindən hesabat tarixinədək, hesabat tarixi də daxil olmaqla** |
|---|---|---|
| | **1** | **2** |
| **1** | **Faiz gəlirləri, cəmi** | **0.00** |
| 1.1 | Verilmiş kreditlər üzrə | **0.00** |
| 1.1.1 | Sənaye | |
| 1.1.2 | Kənd təsərrüfatı | |
| 1.1.3 | Tikinti | |
| 1.1.4 | Nəqliyyat | |
| 1.1.5 | İnformasiya və Rabitə | |
| 1.1.6 | Ticarət | |
| 1.1.7 | Digər qeyri-istehsal və xidmət sahəsi | |
| 1.1.8 | Şəxsi məqsədlər üçün fiziki şəxslərə | **0.00** |
| 1.1.8.1 | Yaşayış sahəsinin alınması | |
| 1.1.8.2 | Yaşayış sahəsinin tikintisi və təmirinə | |
| 1.1.8.3 | Şəxsi istehlak | |
| 1.1.8.4 | Avtomobil | |
| 1.1.8.5 | Digər | |
| 1.2 | Maliyyə institutlarına verilən kreditlər üzrə gəlirlər | |
| 1.3 | İnvestisiyalar üzrə gəlirlər | |
| 1.4 | Qiymətli kağızlar üzrə gəlirlər, cəmi | **0.00** |
| 1.4.1 | dövlət qiymətli kağızları | |
| 1.4.2 | korporativ qiymətli kağızları | |
| 1.5 | Faizli cari hesablar üzrə gəlirlər | |
| 1.6 | Maliyyə müəssələrindəki depozitlər üzrə gəlirlər, o cümlədən, | |
| 1.6.1 | qeyri-rezident maliyyə müəssilərindəki depozitlər üzrə gəlirlər | |
| **2** | **Faiz xərcləri cəmi:** | **0.00** |
| 2.1 | banklardan cəlb olunmuş kreditlər | |
| 2.2 | digər maliyyə müəssisələrinin kreditləri | |
| 2.3 | girov əmanətləri üzrə | |
| 2.4 | qiymətli kağızlar üzrə | |

| | | |
|---|---|---|
| 2.5 | digər faiz xərcləri | |
| **3** | **Xalis faiz gəliri (zərər) (1-ci sətir çıxılsın 2-ci sətir)** | **0.00** |
| **4** | **Qeyri-faiz gəlirləri, cəmi** | **0.00** |
| 4.1 | məzənnə dəyişməsindən xalis gəlir (itki), cəmi | |
| 4.2 | digər qeyri-faiz gəlirləri | 0.00 |
| **5** | **Qeyri-faiz xərcləri, cəmi** | **27.20** |
| 5.1 | əmək haqqı və digər kompensasiya növləri, c*əmi* | **19.33** |
| 5.1.1 | əmək haqqı | 16.20 |
| 5.1.2 | mükafatlar, kompensasiya və müavinətlərin digər növləri | 0.00 |
| 5.1.3 | məşğulluq fonduna ayırmalar daxil olmaqla sosial təminat xərcləri | 3.13 |
| 5.2 | BOKT-nin fəaliyyətində istifadə olunan əsas vəsaitlərlə bağlı xərclər, cəmi | **1.59** |
| 5.2.1 | icarə haqları | 0.48 |
| 5.2.2 | amortizasiya | 1.11 |
| 5.2.3 | əsas vəsaitlərin saxlanması üçün maddi-texniki təminat xərcləri | |
| 5.2.4 | əsas vəsaitlərlə bağlı sair xərclər | 0.00 |
| 5.3 | göstərilmiş xidmətlər üzrə haqqlar | 0.56 |
| 5.4 | digər qeyri-faiz xərcləri | 5.72 |
| **6** | **Əməliyyat mənfəəti (zərəri) (sətir 3 üstəgəl sətir 4 çıx sətir 5)** | **-27.20** |
| **7** | **Aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına ayırmalar (xərclər), cəmi (Girov əmanəti qəbul etmək hüququ olan BOKT-lər üçün)** | **0.00** |
| 7.1 | kredit itkiləri üzrə ehtiyata ayırmalar | |
| 7.2 | investisiya və qiymətli kağızlar üzrə ehtiyata ayırmalar | |
| 7.3 | bank işində istifadə olunmayan əsas vəsaitlər üzrə ehtiyata ayırmalar | |
| 7.4 | digər aktivlər üzrə ehtiyata ayırmalar, o cümlədən | |
| 7.4.1 | faizlər üzrə ehtiyata ayırmalar | |
| 7.5 | balansdankənar aktivlər üzrə ehtiyata ayırmalar | |
| **8** | **Vergilər və gözlənilməz xərclər ödənilənədək xalis mənfəət (zərər) (sətir 6 çıx sətir 7)** | **-27.20** |
| **9** | **Gözlənilməz fəaliyyət növlərindən və əvvəlki dövr üçün uçotdakı dəyişikliklərdən mənfəət (zərər), c*əmi*** | **0.00** |
| 9.1 | daşınmaz əmlakın satışından mənfəət (zərər) | |
| 9.2 | sair mənfəət (zərər) | |
| **10** | **Vergilər ödənilənədək xalis mənfəət (zərər) (sətir 8 üstəgəl (çıx) sətir 9)** | **-27.20** |
| **11** | **Mənfəətdən ödənilən vergilər** | |

| | | |
|---|---|---|
| **12** | **Vergilər ödənildikdən sonra xalis mənfəət (zərər) (sətir 10 çıx sətir 11)** | **-27.20** |
| **13** | **Pul şəklində qrantlar** | |
| **14** | **Xalis mənfəət (12+13)** | **-27.20** |

**MÜHASİBAT BALANSI**

**(min manatla)**

| | **Balansın maddələri** | **Cari ilin hesabat dövrü** |
|---|---|---|
| | | **Cəmi** |
| | **1** | **2** |
| | **AKTİVLƏR** | |
| 1 | Nağd vəsait və hesab qalıqları | **1,090.35** |
| 1.1 | Nağd vəsait | |
| 1.2 | Cari hesablar | **1,090.35** |
| 2 | Banklarda yerləşdirilmiş müddətli depozitlər | **0.00** |
| 2.3.1 | Rezident | |
| 2.3.2 | Qeyri-rezident | |
| 3 | İnvestisiyalar | 96,531.18 |
| 4 | Qiymətli kağızlar | **0.00** |
| 4.1 | Dövlət qiymətli kağızları | |
| 4.2 | Korporativ qiymətli kağızları | |
| 5 | Müştərilərə verilən kreditlər | |
| 5.1 | Müştərilərə verilən kreditlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyat | |
| 5.2 | Xalis kreditlər (5-ci sətir çıx 5.1-ci sətir) | **0.00** |
| 6 | Maliyyə institutlarına verilən kreditlər | |
| 6.1 | Maliyyə institutlarına verilən kreditlər üzrə mümkün zərərlərin ödənilməsi uçün xüsusi ehtiyat | |
| 6.2 | Maliyyə institutlarına xalis kreditlər (6-cı sətir çıx 6.1-ci sətir) | **0.00** |
| 7 | Əsas vəsaitlər (amortizasiya çıxılmaqla) | 1.11 |
| 7.1 | BOKT işində istifadə olunan əsas vəsaitlər | 1.11 |
| 8 | Balansdankənar aktivlər üzrə mümkün zərərlərinin ödənilməsi üçün xüsusi ehtiyatlar | |
| 9 | Qeyri-maddi aktivlər (amortizasiya çıxılmaqla) | 14.40 |
| 10 | Digər aktivlər (ehtiyat çıxılmaqla) | **1.71** |

| | | |
|---|---|---|
| 11 | **Aktivlərin cəmi** | **97,638.75** |
| | **Öhdəliklər** | |
| 1 | Cəlb edilmiş vəsaitlər | **0.00** |
| 1.1 | Bankların kreditləri, | **0.00** |
| 1.1.1 | Rezident | |
| 1.1.2 | Qeyri-rezident | |
| 1.2 | Digər maliyyə institutlarının (banklardan başqa) kreditləri | **0.00** |
| 1.2.1 | Rezident | |
| 1.2.2 | Qeyri-rezident | |
| 1.3 | Girov əmanətləri | |
| 2 | Qiymətli kağızlar | |
| 3 | Mərkəzi idarəetmə orqanlarının vəsaitləri | |
| 4 | Digər öhdəliklər | **2.65** |
| 5 | **Öhdəliklərin cəmi** | **2.65** |
| | **Kapital** | |
| 6 | Nizamnamə kapitalı | **98,835.58** |
| 7 | Qrantlar (artan yekunla) | |
| 7.1 | Cari ilin qrantları | |
| 8 | Bölüşdürülməmiş xalis mənfəət (zərəri) | **-1,199.48** |
| 8.1 | Keçmiş illərin xalis mənfəəti (zərəri) | -1,172.28 |
| 8.2 | Cari ilin xalis mənfəəti (zərəri) | **-27.20** |
| 8.3 | Kapital ehtiyatı | |
| 9 | Ehtiyatlar | |
| 10 | **Kapitalın cəmi** | **97,636.10** |
| 11 | **Öhdəliklər və kapital** | **97,638.75** |

**16.6 Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarımillik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Son audit olunmuş maliyyə hesabatından 9 ay müddət keçməmişdir.

**16.7 Emitentin maliyyə vəziyyətinə və ya gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** Emitentin fəaliyyətinə təsir edəcək hər hansı həlli gözləyən hüquqi proses(lər) mövcud deyildir.

**16.8 Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat.** Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində mühüm dəyişiklik baş verməyib.

**17. Emitent haqqında əlavə məlumatlar**

**17.1 Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin (payların) miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:** Nizamnamə kapitalının ümumi məbləği 98,835,580.00 (doxsan səkkiz milyon səkkiz yüz otuz beş min beş yüz səksən) manat həcmindədir və 1 ədəd paydan ibarətdir.

| Təsisçi | Hüquqi şəxsin olduğu yer, ünvanı və poçt indeksi göstərilməklə | Payların sayı | Emitentin Nizamnamə Kapitalında faiz nisbəti (faizlə) |
|---|---|---|---|
| "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti | Azərbaycan Respublikası, AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Neftçilər pr. 153 | 1 | 100% |

**17.2 Emitentin nizamnaməsi barədə:**

**17.2.1 Fəaliyyət və məqsədlərin təsviri:** Emitent lisenziyasında qeyd olunan fəaliyyət növü (kreditlərin verilməsi) ilə yanaşı, həmçinin "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə qanunvericiliyə müvafiq qaydada məşğul ola bilər.

**17.2.2 İdarəetmə və nəzarət orqanlarının səlahiyyətləri barədə müddəaların icmalı:** Ümumi yığıncağın hüquq və vəzifələri, o cümlədən, Müşahidə Şurasının hüquq və vəzifələri Azərbaycan Respublikasının Mülki Məcəlləsində və ona müvafiq olaraq hazırlanmış emitentin nizamnaməsində nəzərdə tutulan müəddəalar çərçivəsində həyata keçirilir.

**17.2.3 Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyil

## İSTİQRAZLAR BARƏDƏ TƏLƏB OLUNAN MƏLUMAT

**18. Əsas məlumat**

**18.1. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:** Emissiyada iştirak edən aşağıdakı şəxslərin maraqların toqquşması mövcud deyildir.

**“Bakı Fond Birjası” Qapalı Səhmdar Cəmiyyəti (BFB).** Emissiya prosesində iştirak edən BFB yeni emissiya ediləcək istiqrazların ticarətə qəbul edilməsi, listinqə daxil edilməsi, listinqdə saxlanılması, yerləşdirilməsi, həmçinin təkrar bazarlarda alqı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir.

Bakı Fond Birjasının “Kapital Bank” ASC-nin və digər emitentlərin emissiya etdiyi qiymətli kağızların onun ticarət platformasında ticarətə buraxılmasında marağı kommersiya xarakterlidir. BFB qiymətli kağızların ticarətə qəbul edilməsi, yerləşdirilməsi və tədavülündən, habelə qiymətli kağızların listinqindən öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**Milli Depozit Mərkəzi (MDM).** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Milli Depozit Mərkəzinin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərinin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (əsas borc və faiz) həyata keçirilməsi xidmətinin göstərilməsi.

Bu xidmətlərin göstərilməsinə görə MDM öz tarif cədvəlinə uyğun olaraq xidmət haqqı tutur.

**“PAŞA Kapital İnvestisiya Şirkəti” Qapalı Səhmdar Cəmiyyəti**

“PAŞA Kapital İnvestisiya Şirkəti” QSC 09.03.2016-cı il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş İSN/L-640/2016, 088806 saylı müddətsiz lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir. “Kapital Bank” ASC tərəfindən buraxılacaq istiqrazların anderraytinqi və yerləşdirilməsi “PAŞA Kapital İnvestisiya Şirkəti” QSC tərəfindən həyata keçiriləcəkdir və bu xidmətlərin göstərilməsinə görə emitentdən xidmət haqqı tutacaqdır. “Kapital Bank” ASC-nin istiqrazlarının anderraytinqi və yerləşdirilməsi prosesində “PAŞA Kapital İnvestisiya Şirkəti” QSC-nin marağı kommersiya xarakterlidir.

**18.2. İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ətraflı məlumat:** Bu istiqrazların buraxılışı mütəşəkkil kapital bazarından sərbəst vəsaitlərin cəlb edilməsi ilə Birkart BOKT-un aktivlərinin və pul vəsaitlərinin resurs bazasının diversifikasiyasının artırılması, eləcə də Azərbaycan Respublikasının qiymətli kağızlar bazarının inkişafına töhfə vermək məqsədi ilə həyata keçiriləcəkdir.

Emissiyadan əldə olunan vəsait BirKart BOKT-un strateji hədəflərinin reallaşdırılması, nüfuzunun və bazar payının artırılması, o cümlədən kredit portfelinin dinamik inkişafında istifadə ediləcəkdir.

**18.3. Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələrinin maliyyələşdirmək üçün kifayət etmədiyi təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin məbləği və mənbələri:** Nəzərdə tutulmayıb.

**18.4. Əldə olunan vəsaitlərin digər müəssisələrinin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restrukturizasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı**

**olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Əldə olunacaq vəsait bu bənddə göstərilən istiqamətlər üzrə istifadə olunmayacaqdır.

**19. İstiqrazlar barədə məlumat**

**19.1 Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016 -cı il tarixli 05 saylı qərarı ilə təsdiq edilmiş "Emissiya prospektinə və informasiya memorandumuna dair tələblər haqqında Qaydalar" və 27 yanvar 2016-cı il tarixli 04 saylı qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar" və digər hüquqi aktlar.

**19.2 Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə):**

| | İSİN | Say | Nominal |
|---|---|---|---|
| Yeni buraxılan istiqrazlar | - | 20,000 ( iyirmi min) ədəd | 100 (bir yüz) manat |

**19.3 İstiqrazların valyutası:** Azərbaycan manatı (AZN)

**19.4 İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi depozitarın olduğu yer:** Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1141, Həsən bəy Zərdabi prospekti 2A, Şokolad Tauer.

**19.5 Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** Təklif edilən istiqrazların reytinqi mövcud deyil.

**19.6 İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilmə qaydası və onlara dair məhdudiyyətlər:**

- İstiqrazların tədavül müddəti bitdikdə istiqrazların nominal dəyərini Emitentdən almaq;
- İstiqrazların tədavül müddəti ərzində istiqrazların nominal dəyərindən bu Prospektin 3.5-ci bəndində müəyyən edilmiş qaydada illik 11.5 (on bir tam onda beş) faiz həcmində almaq;
- Emitentin ləğvi, yaxud Emitentin kreditorları qarşısında olan öhdəliklərinin icrasına dair təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan edildikdə istiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;
- Özünə məxsus istiqrazların vəziyyəti barədə məlumat almaq üçün Milli Depozit Mərkəzinə müraciət etmək;
- İstiqrazla təsdiqlənmiş hüquqları alqı-satqı bağlamaq yolu ilə ötürmək;
- İstiqrazları girovla və qanunvericiliklə nəzərdə tutulmuş digər öhdəliklərlə yükləmək. Belə yüklənmə qiymətli kağızlar üzrə depozitar sistemdə qeydiyyata alındığı andan qüvvəyə minir;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

İstiqrazların əldə edilməsi ilə bağlı heç bir məhdudiyyət mövcud deyildir.

**19.7 İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi (müəyyən olduqda):** İllik 11.5 (on bir tam onda beş) faiz

**19.8 İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 11.5 (on bir tam onda beş) faiz təşkil edir. İstiqrazlar üzrə ödənilməli olan faizlər istiqrazların tədavül dövründə (buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 1 (bir) il müddətində, ildə günlərin sayı 360 (üç yüz altmış) olaraq götürülməklə) hər 30 (otuz) təqvim gününün başa çatması tarixindən növbəti 3 (üç) iş günündən gec olmayaraq ödənilir. Ödənişlər bank hesabları vasitəsilə nağdsız qaydada həyata keçirilir. İstiqrazların nominal dəyəri sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir.

**19.9 Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas və faiz borcun ödənilməsi ilə bağlı iddia müddətləri Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

**19.10 Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.

**19.11 Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi mövcud deyil. Bazarda baş verən hadisələr istiqrazlar üzrə hesablaşmalara mənfi təsir göstərməyəcəkdir.

**19.12 Ödənişlər üzrə hesablaşma agentinin adı:** İstiqrazların yerləşdirilməsi zamanı pul vəsaitlərinin toplanması "PAŞA Kapital İnvestisiya Şirkəti" QSC-nin hesablaşma agenti olan "PAŞA Bank" Açıq Səhmdar Cəmiyyəti vasitəsilə yerinə yetiriləcəkdir.

İstiqrazlar üzrə faiz (kupon) ödənişləri və nominal dəyər üzrə əsas ödəniş Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi vasitəsilə həyata keçiriləcəkdir.

**19.13 Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Təklif edilmiş istiqrazlar təmin edilməmiş formada buraxılır.

**19.14 İstiqrazların geri satın alınmasının şərtləri:** Tədavül müddəti ərzində istiqrazların geri satın alınması ilə bağlı Emitent tərəfindən öhdəlik nəzərdə tutulmur

**19.15 Gəlirlilik dərəcəsi və onun hesablanması qaydası:** İstiqrazlar üzrə kupon gəlirliliyi illik 11.5 (on bir tam onda beş) faiz təşkil edir. İstiqrazlar üzrə toplanmış faizlərin hesablanması aşağıdakı düstura uyğun olaraq aparılır:

$$TF = \frac{\left(\frac{N * D * G}{360}\right)}{100}$$

**Burada:**

**TF –** Bir istiqraz üzrə toplanmış faizlər

**N –** Bir istiqrazın nominal dəyəri: 100 (bir yüz) manat

**D –** İstiqrazların illik faiz dərəcəsi: 11.5 (on bir tam onda beş)

**G –** İstiqrazlar üzrə faiz ödənişi dövrünün müddəti

**19.16 İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat:** Mövcud deyil.

**19.17 İstiqrazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** İstiqrazların emissiyası haqqında qərar (7 saylı protokoldan çıxarış) "Birkart Bank Olmayan Kredit Təşkilatı" Məhdud Məsuliyyətli

Cəmiyyətinin İştirakçılarının Ümumi Yığıncağı tərəfindən tərəfindən 18 iyun 2025-ci il tarixində qəbul edilmişdir.

**19.18 İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** Hər hansı məhdudiyyətlər nəzərdə tutulmamışdır.

**19.19 İstiqraz üzrə gəlirlərdən mənbədə verginin tutulması barədə məlumat:** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – AR Vergi Məcəlləsi) 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-ci və 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur.

İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

**19.20 İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:** Milli Depozit Mərkəzi faiz (kupon) ödənişi günündən bir iş gün əvvələ düşən iş gününün sonunda saat 18.00-da istiqraz sahiblərinin reyestrini formalaşdıracaqdır. Növbəti iş günü (ödəniş günü) həmin reyestrdə adları qeyd olunan investorlara sahib olduqları istiqrazların sayına görə müvafiq faiz (kupon) ödənişinin məbləği hesablanacaqdır. Bu faiz ödənişinin məbləğindən ödəmə mənbəyindən tutulan verginin məbləği çıxıldıqdan sonra xalis faiz ödənişinin məbləği investorların bank hesabına köçürüləcəkdir.

**20. Təklifin şərtləri**

**20.1 Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:** İstiqrazların yerləşdirilməsi kütləvi təklif üsulu ilə "Bakı Fond Birjası" QSC-nin ticarət platforması üzərindən həyata keçiriləcəkdir. Emissiya ediləcək istiqrazlar maliyyə bazarlarına nəzarət orqanı (ARMB) tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra, abunə yazılışına 2 (iki) ay ərzində başlanılacaq və abunə yazılışı isə 30 (otuz) təqvim günü ərzində həyata keçiriləcəkdir. Abunə yazılışı başa çatdıqdan sonra istiqrazların yerləşdirilməsinə 5 (beş) iş günü ərzində başlanılacaq və istiqrazların yerləşdirilməsi müddəti başlandığı tarixdən etibarən 7 (yeddi) iş günündən çox olmamaq şərti ilə

tamamlanacaqdır. Ümumilikdə, qiymətli kağızların yerləşdirilməsi qanunvericilikdə nəzərdə tutulmuş qaydalara əsasən tamamlanacaqdır. Abunə yazılışının başlanması və bitmə tarixləri, habelə istiqrazların yerləşdirilməsi tarixləri ictimaiyyətə BFB-nin (www.bfb.az) rəsmi saytları vasitəsilə açıqlanacaqdır.

**20.2 Təklifin qüvvədə olduğu müddət ərzində prospektə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:** Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 (beş) iş günü ərzində qanunvericilikdə müəyyən edilmiş orqana (quruma) təqdim edilir. Emissiya prospektində dəyişikliklər müvafiq ərizənin daxil olduğu gündən 10 (on) iş günü ərzində dövlət qeydiyyatına alınır. Qeyd olunan dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən 5 (beş) iş günü ərzində vahid məlumat resursunda (“Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem), fond birjasının və Emitentin internet səhifəsində açıqlanır və açıqlandığı tarixdən 15 (on beş) iş günü bitdikdən sonra qüvvəyə minir.

Emissiya prospektində edilmiş dəyişikliklərin açıqlanmasından əvvəl investisiya qiymətli kağızlarının alınması üzrə abunə yazılışına razılaşmış investorlar həmin dəyişikliklərin açıqlandığı tarixdən yeddi iş günü ərzində təkliflərini geri götürmək hüququna malikdirlər.

**20.3 Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda (“Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanır.

**20.4 İstiqrazlara abunə yazılışı haqqında məlumat:**

**20.4.1 İstiqrazlara abunə yazılışının qaydası:** İstiqrazlara abunə yazılışı investorlar tərəfindən sifarişin Bakı Fond Birjasının üzvü olan investisiya şirkətlərinə təqdim edilməsi ilə həyata keçirilir. Abunə yazılışı üçün sifariş investor tərəfindən imzalanmalıdır. Hüquqi şəxslərin təqdim etdikləri sifariş onların səlahiyyətli şəxsi tərəfindən imzalanmalı və möhürlənməlidir. Sifariş təqdim edilərkən onun üzərində investisiya şirkətlərinin səlahiyyətli şəxsi tərəfindən sifarişin qəbul edildiyi tarix, vaxt, qeydiyyat nömrəsi, sifarişi qəbul edən şəxsin adı, soyadı qeyd edilir və uçota alınır. Abunə yazılışı sifarişləri uçota alınaraq, abunə yazılışı müddətində Anderrayter tərəfindən toplanır.

Bakı Fond Birjasında istiqrazların yerləşdirilməsindən əvvəl toplanmış abunə yazılışı sifarişləri “PAŞA Kapital İnvestisiya Şirkəti” QSC tərəfindən investorlar arasında bölüşdürülür. Topanmış sifarişlərin (tələb)  həcmi təklifdən az olarsa, hər bir investorun tələbini tam ödəməklə icra edilir. Toplanış sifarişlərin (tələblərin) həcmi təklifdən çox olarsa, təklif edilən istiqrazlarının sayının tələb olunan istiqrazların sayına olan nisbəti (əmsal) hesablanır. Hər bir investorun abunə yazılışı sifarişinin sayı bu əmsala vurularaq, alınan rəqəmin kəsr hissəsi aşağı yuvarlaqlaşdırılmaqla,

rəqəmin tam hissəsi qədərində investora istiqraz bölüşdürüləcəkdir. Bundan sonra yarana biləcək yuvarlaqlaşdırma qalığı, investorların sifarişlərinin icraya qəbul edilmə tarixi və vaxtı (əvvəlinci sifarişdən sonrakına doğru) nəzərə alınmaqla, yaranmış yuvarlaqlaşdırma qalığı bitənə qədər istiqrazlar bir-bir ödənilməklə icra ediləcəkdir.

**20.4.2 Abunə yazılışı zamanı sifarişlərin geri çağırılması və abunəçilər tərəfindən ödənmiş artıq məbləğin geri qaytarılması qaydası və müddəti:** İnvestorlar abunə yazılışı üçün sifarişləri imzaladıqdan sonra abunə yazılışının bitməsinə 2 (iki) iş günü qalmış tarixə kimi sifarişlərini geri götürə bilərlər. Emissiya Prospektində dəyişikliklər edildikdə həmin dəyişikliklərin açıqlanmasından əvvəl İstiqrazların alınması üzrə abunə yazılışına razılaşmış investorlar qeyd olunan dəyişikliklərin açıqlandığı tarixdən 7 (yeddi) iş günü ərzində təkliflərini geri götürmək hüququna malikdirlər. Yerləşdirmə bitdikdən sonra, abunəçilər tərəfindən ödənmiş artıq məbləğin geri qaytarılması 3 (üç) iş günü ərzində investorun hesabına köçürülməsi təmin ediləcəkdir.

**20.4.3 Abunə yazılışının (investisiya etmək üçün qiymətli kağızların sayına və ya məcmu miqdarına) minimum və/və ya maksimum məbləği:** Abunə yazılışı üzrə minimum və/ və ya maksimum məbləğlə bağlı məhdudiyyət yoxdur.

**20.5 İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası:** Kütləvi təklif edilən istiqrazlar, fond birjasında hərrac vasitəsilə deyil, abunə yazılışı vasitəsi ilə yerləşdiriləcək**.**

**20.6 İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:** İstiqrazların yerləşdirilməsi nəticəsində istiqrazlar investorların depo hesabına köçürüləcəkdir. İstiqrazın dəyəri pulla ödənilir və bu pul vəsaiti emitentin açdığı müvəqqəti cari hesabda ("PAŞA Bank" Açıq Səhmdar Cəmiyyəti) saxlanılır. Müvəqqəti cari hesabda olan pul vəsaitləri "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinə uyğun olaraq istiqrazların ilk mülkiyyətçilərinin depo hesabına köçürüldüyü andan dərhal sonra emitentin bank hesabına köçürüləcəkdir.

**20.7 Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** Emissiya ediləcək istiqrazlar həm fiziki, həm də hüquqi şəxslər tərəfindən əldə edilə bilər.

**20.8 İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** İstiqrazlar ARMB tərəfindən qeydiyyata alındıqdan sonra abunə yazılışının başlanma və bitmə tarixləri, eləcə də abunə yazılışı bitdikdən sonra yerləşdirmənin başlanma tarixi "Bakı Fond Birjası" QSC-nin (www.bfb.az) və Anderrayterin internet səhifəsində ictimaiyyətə açıqlanacaqdır.

**20.9 İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirmə metodu göstərilməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat:** İstiqrazların Abunə yazılışının qiyməti - Abunə yazılışı dövründə İnvestorlar tərəfindən sifarişlərin verilmə tarixindən və həcmindən asılı olmayaraq, istiqrazlar nominal qiyməti ilə yəni, 1 istiqraz 100 (bir yüz) manat təklif olunur

**20.10 İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – AR Vergi Məcəlləsi) 123.1-ci maddəsinə

əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-ci və 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur.

AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur.

İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

**Xərclər:** İlkin bazarda istiqrazların alışı zamanı bağlanan əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

- Bakı Fond Birjası - əqdin həcmindən 0.02%
- Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
- İnvestisiya şirkətləri – investisiya şirkəti ilə investor arasında bağlanmış müqavilə əsasında;
- Bank köçürmə xərcləri – bankdan aslı olaraq dəyişir.

**20.11 İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı) və xidmət haqqı haqqı:** İstiqrazların öhdəliyi götürmədən yerləşdirilməsi üzrə “PAŞA Kapital İnvestisiya Şirkəti” Qapalı Səhmdar Cəmiyyəti anderrayter təyin edilmişdir.

“PAŞA Kapital İnvestisiya Şirkəti” QSC Lisenziyası: 09 mart 2016-ci il tarixində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən investisiya şirkəti fəaliyyətinin həyata keçirilməsi üçün verilmiş İSN/L-640/2016 nömrəli lisenziya

Hüquqi ünvanı: Bakı şəh., Lev Tolstoy küçəsi, 170

Faktiki ünvanı: Bakı şəh., Cəfər Cabbarlı küç, 44, Caspian Plaza 10-cu mərtəbə, AZ1065

Xidmət haqqı: Emitent ilə imzalanmış xidmət müqaviləsinə əsasən müəyyən olunacaqdır.

**20.12 Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı.**

“Kapital Bank” ASC və “PAŞA Kapital İnvestisiya Şirkəti” QSC arasında 28 aprel 2025-ci il tarixli xidmət müqaviləsi imzalanmışdır.

## 21. Ticarətə buraxılma və onun tənzimlənməsi

**21.1 İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:**

İstiqrazların yerləşdirilməsi abunə yazılışı formasında kütləvi təklif üsulu ilə "Bakı Fond Birjası" QSC-nin ticarət platformasında həyata keçiriləcək. İstiqrazların Bakı Fond Birjasında ticarətə qəbul edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir. Qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması, ticarətinin dayandırılması, delistinqi qaydalarını və onların emitentlərinin bu qaydalar üzrə öhdəliklərinin icrası üzrə məsələlər ""Bakı Fond Birjası" QSC-də qiymətli kağızların ticarətə qəbulu, listinqə alınması, listinqdə saxlanılması və delistinq" Qaydaları ilə müəyyən edilir. Qeyd olunan Qaydanın 3.3-cü bəndinə əsasən kütləvi yerləşdirmə üsulu ilə ticarət baş tutduqdan sonra qiymətli kağızlar müvafiq seqment üzrə listinqə alınır.

Bakı Fond Birjası yeni emissiya edilmiş istiqrazların ticarətə qəbul edilməsi, kütləvi təklif üsulu ilə yerləşdirilməsi, listinqə alınması, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.

Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000-ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir.

Bakı Fond Birjasının fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli Kağızlar Bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər normativ hüquqi normativ aktları və Bakı Fond Birjasının nizamnaməsi və daxili qaydaları ilə tənzimlənir.

**21.2 Market meyker(lər) barədə məlumat:** Mövcud deyil. Bazar şərtlərini nəzərə alaraq, Emitent istiqrazların likvidliyinin qorunması və ya artırılması məqsədi ilə market-meyker(ləri) cəlb edə bilər.

## 22. Kredit reytinqləri

**Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:** Emitent üçün hər hansı kredit reytinqi təyin edilməmişdir.